**“Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) fəaliyyətinin dayandırılması” elektron xidmətinin**

**İstifadəçi təlimatı**

**“Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) fəaliyyətinin dayandırılması”** arayışının təqdim olunması məqsədilə https://new.e-taxes.gov.az Portalına daxil olub “Giriş” bölməsi seçilir.




Giriş bölməsinə daxil olduqdan sonra açılan pəncərədə “Asan İmza”, “SİMA İmza” və yaxud “SİMA Token” bölmələrindən biri seçilir.




İstifadəçi tərəfindən elektron kabinetə daxil olmaq üçün “Asan İmza” bölməsi seçildikdə “Mobil nömrə” və “İstifadəçi ID” daxil edilir və “Daxil ol” düyməsi sıxılır.




İstifadəçi tərəfindən elektron kabinetə daxil olmaq üçün "SİMA Token" bölməsi seçildikdə ilk öncə SİMA Token kompüterə qoşulur, sonra "Daxil ol" düyməsi sıxılır.




İstifadəçi tərəfindən elektron kabinetə daxil olmaq üçün "SİMA İmza" bölməsi seçildikdə "SİMA" mobil tətbiqi açılaraq ekrandakı QR kod skan edilir və kabinetə daxil olunur.




Növbəti mərhələdə açılan yeni pəncərədə **“Ərizələr”** modulu seçilir.




Daha sonra “Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) fəaliyyətinin dayandırılması” arayışının təqdim olunması üçün “Yeni ərizə” xanasına müraciətə uyğun arayışın adı yazılaraq

axtarış nəticəsində ekranda adı əks olunan arayış forması seçilir və yaxud **“Hamısına bax”** düyməsi vasitəsilə yeni açılan pəncərədən müvafiq arayış forması seçilir.




Açılan ekranda “Obyekti seçin” xanasına fəaliyyəti dayandırılacaq müvafiq obyektin kodu və ya adı yazılaraq axtarış nəticəsində adı əks olunan həmin obyekt üzrə seçim edilir və **“Davam et”** düyməsi sıxılır.




Əgər istifadəçi tərəfindən daha əvvəl seçilmiş obyekt üzrə bu arayış forması doldurularaq qaralamada saxlanmışdırsa, o zaman ekranda açılan pəncərədə əvvəl qaralaması yaradılmış arayış formaları əks olunur və seçim imkanı verilir. İstifadəçi əvvəllər qaralaması yaradılmış arayış forması üzrə davam etmək istədikdə ekrandakı qaralaması olan arayış forması seçilir və bu zaman

aktivləşən **“Davam et”** düyməsi sıxılır və yeni pəncərədə əvvəl doldurulmuş arayış forması açılır və düzəliş imkanı mümkün olur.




Yeni arayış formasını yaratmaq istədikdə isə **“Yeni ərizə yarat”** düyməsi sıxılır.




.

Açılmış arayış formasında əks olunan **“Siyahıya qayıt”** düyməsini sıxdıqda ekranda əks olunan pəncərədəki **“İmtina”** düyməsini sıxmaqla arayış formasının doldurulmasına qaldığı yerdən davam etmək, **“Xeyr, silinsin”** düyməsini sıxmaqla yaradılmış arayış formasını silmək, **“Bəli, yadda saxlanılsın”** düyməsini sıxmaqla yaradılmış arayış formasının yadda saxlanılması mümkün olur.







“Xeyr, silinsin” düyməsini sıxıldıqda açılan “Xidmətin yekunlaşdırılması” pəncərəsindəki müvafiq məlumatlar doldurulduqdan sonra aktivləşən **“Göndər”** düyməsi sıxılır.




Açılan ekranda vergi orqanı və vergi ödəyicisi barədə məlumatlar avtomatik olaraq əks etdirilir.




“Fəaliyyətin və əməliyyatların dayandırıldığı tarix” və “Fəaliyyətin və əməliyyatların dayandırıldığı son tarix” xanalarında müvafiq olaraq tarixlər qeyd edilir.




"Fəaliyyətin dayandırılmasının əsas səbəbi" xanasında qeyd olunan səbəblərdən biri seçilir.




Növbəti addımda "İcarəyə götürülmüş daşınar əsas vəsaitlər" və "Ödəyicinin aktivləri" sətirləri müvafiq olaraq "Var" və ya "Xeyr" seçməklə doldurulur.




"Ödəyicinin aktivləri" sətrində "Var" seçildikdə "Mülkiyyətdə olan daşınar əsas vəsaitlərin ümumi dəyəri (manatla)" və "Malların və ehtiyatların ümumi dəyəri (manatla)" xanaları ekranda əks olunur və həmin xanalar üzrə müvafiq məlumatlar daxil edilir.




Daha sonra arayışın göndərilməsi üçün aktivləşən "İmzala və göndər" düyməsi, qaralamada saxlanılması və daha sonra göndərilməsi üçün "Qaralamada saxla və çıx" düyməsi sıxılır.

İmzala və göndər düyməsi sıxıldıqdan sonra müvafiq arayış forması imzalanaraq göndərilə və ya bu əməliyyatdan imtina edilə bilər.







“İmzala və göndər” düyməsi sıxıldıqda açılan pəncərədə “İmtina” düyməsi sıxıldıqda yenidən əvvəlki pəncərəyə (arayışın formasının doldurulması pəncərəsinə) geri qayıdılır.




“İmtina” düyməsi sıxıldıqdan sonra ekranda əks olunan “Sil” düyməsi sıxılmaqla arayış forması silinə və ya əksinə bu əməliyyatdan imtina edilə bilər.







Arayış imzalanaraq göndərildikdən sonra yeni pəncərədə istifadəçi tərəfindən doldurulmuş məlumatlara uyğun arayış forması və müvafiq arayışın göndərilməsi barədə “Bildiriş” ekranda əks olunur. Həmin pəncərədə **“Çap”** düyməsi vasitəsi ilə arayış çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər. **“Bağla”** düyməsi isə pəncərəni bağlamaq üçün nəzərdə tutulmuşdur.







İstifadəçi tərəfindən göndərilən “Vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) fəaliyyətinin dayandırılması” arayışı “Göndərilənlər” qovluğunda əks olunur və bu hissədə arayışın statusu barədə məlumat qeyd olunur.




Eyni zamanda bu hissədən də istifadəçi tərəfindən **“Çap”** düyməsi vasitəsi ilə arayış çap edilə, **“Endir”** düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər.

